# *Kələfi kim dolaşdırır?*

*Akif MƏMMƏDOV*

**Çox hörmətli Yusif müəllim!** Müəlliflərindən biri olduğunuz dərslik ("Türk dili", 7-8-ci siniflər üçün) haqqında mətbuatda deyilənlərə bir daha qayıtmağa məcbur oldum. Nə birinci məqaləmdə ("Azadlıq", 25 aprel 1995) nə də indi məqsədim nəyisə tənqid etmək, görülən işi dəyərdən salmaq yox, özüm üçün və mənə elə gəlir, həm də müəllimlər üçün bəzi dolaşıq məsələlərə aydınlıq gətirmək olub. Siz özünüz də etiraf edirsiniz ki, "dərslikdə bir sıra metodik uyğunsuzluqlara və fikir səhvlərinə yol verilmişdir". Bu səhvə kim yol verib – siz müəlliflər, redaktor və ya mətbəə işçiləri... – müəllim və şagirdləri bir o qədər də maraqlandırmır, onları fakt maraqlandırır. Fakt da odur ki, səhvlər və dolaşıq mətləblər var. Və çox sağ olun ki, belələrindən bir neçəsinə məqalənizdə ("Azərbaycan müəllimi" qəzeti, 17 oktyabr 1995) aydınlıq gətirmisiniz.

... Ancaq bəzi məsələlər yenə qaranlıq qaldı. Mən yazmışdım ki, feili tərkiblərin hüdudunu müəyyənləşdirmək üçün sintaktik əlaqələri bilmək lazımdır. Ona görə də yaxşı olar ki, əvvəl sintaktik əlaqələr öyrənilsin, sonra tərkiblər. Sizin cavabınızdansa belə çıxır ki, söz birləşməsi və cümlə sintaksisin tədqiqat obyekti olduğu üçün bu iki məsələyə aid hər şeyi, lap elə sintaktik əlaqələri də onların hansından əvvəl və ya sonra öyrənməyin fərqi yoxdur. Qəribə məntiqdir. Bu məntiqə görə, tutaq ki, mən baş üzvlərin hər ikisinə aid əlamətləri istəsəm mübtədanı keçəndə öyrədərəm; istəsəm xəbəri. Və əlbəttə, problemi beləcə qoymaqla Siz soruşduğum mətləbdən bir qədər yayınmısınız. Mən konkret olaraq soruşmuşdum ki, 107-ci çalışmanın tələbinə görə şagird feili birləşmələrin hüdudlarını necə müəyyənləşdirməlidir? Sizin fikrinizcə, "tərkiblərin hüdudlarının müəyyənləşdirilməsinin sintaktik əlaqələri dəxli yoxdur" ("Azərbaycan müəllimi", 17 oktyabr 1995). Tutaq ki, dəxli yoxdur. Axı sual yenə havadan asılı qalır: ola bilər ki, feili sifətdən əvvəl on söz işlənsin, ancaq onların beşi tərkibə daxil olsun. "*Birdən meydana yaxınlaşanların hamısı əlində radio cihazı tutmuş, üz-gözü pörtmüş Tahiri gördü*" cümləsindəki "tutmuş" feili sifətindən əvvəl 7 söz var, bəs niyə onlardan ancaq 3-ü tərkibə daxildir (əlində radio cihazı tutmuş)? Yusif müəllim , Siz "təkcə bizim dilçilikdə deyil, bütün türkologiyada bu sahələrin ən görkəmli mütəxəssisisiniz" (Q.Kazımov) və çox yaxşı bilirsiniz ki, feilin təsriflənməyən formaları o vaxt tərkib əmələ gətirir ki,

onlardan əvvəl işlənən sözlər ya onların özü ilə, ya da onlarla sintaktik əlaqəyə girən sözlərlə əlaqəyə girsin, bu formalardan əvvəl işlənsə də, onlardan sonrakı sözlərlə sintaktik tabelilik əlaqəsinə girən sözlər tərkibə daxil ola bilmir. Mənim istəyim odur ki, bu məlum həqiqət şagirdə də çatdırılsın, qoy o, məsələnin mahiyyətini dərk etsin. Onda təlimdə şüurluluq deyilən tələb də təmin edilmiş olar. Demək, tərkiblərin yaranma mexanizminin əsasında sintaktik əlaqələr durur. Əslində bu, Sizin sözlərinizlə desək, "tarixi faktdır". Haqqında söhbət gedən məqalənizdə özünüz də qeyd edirsiniz ki, "... cümlə üzvləri məsələsi cümlə bəhsinə aiddirsə, sintaktik əlaqələr də söz birləşməsi bəhsinə aiddir". Və Sizin "gərək bir məsələ haqqında fikir demək istəyən şəxs... dilçilik ədəbiyyatına nəzər salsın" məsləhətinizə görə bir-iki sitat da verəcəyəm ki, deməyəsiniz xəbəri yoxdur: "Morfoloji cəhətdən feili bağlama şəklində formalaşan sözlər başqa nitq hissələri ilə birləşib, **sintaktik cəhətdən həmin sözləri özünə tabe edərək** feili bağlama tərkibini əmələ gətirir" ("Orta məktəblərdə Azərbaycan dilin tədrisi", II hissə, 1977, səh. 204). "Feili sifətdən qabaq işlənib, **onunla sintaktik əlaqə saxlayan** sözlər feili sifət tərkibini əmələ gətirir" (Ə.Abdullayev, Y.Seyidov, A.Həsənov "Müasir Azərbaycan dili", 1972, səh. 275). Bu mənbədə feili bağlama (səh. 276) və məsdər (səh.279) tərkiblərinin yaranma mexanizmi də beləcə izah edilir. "Feili bağlama və **onunla əlaqəyə girən digər sözlər** birlikdə feili bağlama tərkibləri əmələ gətirir" (B.Əhmədov, A.Axundov "Türk dili", 6-cı sinif üçün, 1995, səh. 82). Məncə, kifayətdir.

Sizin daha bir məsləhətinizə ("Dərslik haqqında məqalə yazanda, yaxud müəllim auditoriyasında bu barədə söhbət aparanda ehtiyatlı olmaq, məsələnin mahiyyətini öyrənib yazmaq və danışmaq lazımdır ki, anlaşılmazlıq əmələ gəlməsin") əməl edərək ayrı bir problemə də aydınlıq gətirmək istəyirəm. Yazırsınız: "Akif Məmmədovun yazdığına görə, "Bəzi dilçilər deyir ki, guya 3-cü növ təyini söz birləşməsinin arasına girən söz bütün birləşməyə aid olur". Mən belə bir şey eşitməmişəm və inanmıram ki, kimsə o cür söz demiş olsun. Çox sevimli müəllimim, professor Qəzənfər Kazımov bu fikrimə görə məni danlayır ki, həmin problemlə bağlı dilçilikdə daha bir fikir var və tələbəsi onu niyə unudub. Uzunçuluq da olsa, məcburam sitatı və mənbəni göstərəm: "Söz birləşməsindən əmələ gələn təyin olunana – cümlə üzvünə aid təyin (yaxud təyinlər) bəzən söz birləşməsinin – cümlə üzvünün tərəfləri arasında da yerləşə bilir. Bu halda təyin formal surətdə söz birləşməsinin – cümlə üzvünün ikinci tərəfindəki sözü izah etsə də, **məzmun etibarilə bütöv söz birləşməsinə -** cümlə üzvünə aid olur: məsələn,

“Dadaşlının qara, arıq, uzun və bozumtul üzü elə birinci görüşlərindən Tahirin o qədər də xoşuna gəlməmişdi” (“Azərbaycan dilinin qrammatikası”, 2-ci hissə, Azərb. EA-nın nəşriyyatı, 1959-cu il, səh. 121).

***“Azadlıq” qəzeti, 05 dekabr, 1995***